Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 28 saylı Sabunçu III seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizəd Əliyev Qəndəli Aşur oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 21 noyabr 2014-cü il tarixli 03 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 21 noyabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Validə Kazımova 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 28 saylı Sabunçu III seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizəd Əliyev Qəndəli Aşur oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 21 noyabr 2014-cü il tarixli 03 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Əliyev Qəndəli Aşur oğlu 2014-cü il noyabrın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, 28 saylı Sabunçu III seçki dairəsi Bilgəh bələdiyyəsi üzrə namizədliyini öz təşəbbüsü ilə irəli sürməsi zamanı həmin seçki dairəsi dairə seçki komissiyasının sədrinin qanunsuz hərəkətindən narazılığını bildirmiş və Mərkəzi Seçki Komissiyasından onun namizədliyinin irəli sürülməsində köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən araşdırılmışdır.

Vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürülərək, ərizəçilərin müraciəti Mərkəzi Seçki Komissiyası tərəfindən qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Şikayətdə göstərilən halın tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması nəticəsində müəyyən edilmişdir ki, vətəndaş Q.A.Əliyev Bilgəh bələdiyyəsi üzrə namizədliyinin irəli sürülməsi ilə bağlı komissiyaya müraciət etməmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 53-cü maddəsinə görə vətəndaş namizədliyini öz təşəbbüsü ilə irəli sürülə bilər, o şərtlə ki, ərazisində namizədin dəstəklənməsi üçün zəruri olan imzaların yığıldığı və namizədin qeydə alınmasının nəzərdə tutulduğu müvafiq seçki komissiyasına bu barədə bildiriş göndərilsin. Namizəd  müvafiq seçki komissiyasına yazılı bildiriş verir. həmin bildirişdə namizədin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, bundan başqa, irəli sürülən namizədin əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda — fəaliyyət növü) göstərilməlidir.

Müvafiq seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır və namizədə, namizədliyin müvafiq seçki dairələri üzrə irəli sürülməsini təsdiq edən qərar təqdim edir. Müvafiq seçki komissiyası təqdim olunmuş sənədlərin qəbul edilməsindən imtina edə bilməz.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və "Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Əliyev Qəndəli Aşur oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 noyabr 2014-cü il tarixli 03 saylı müraciəti təmin edilsin və onun namizədliyinin irəli sürülməsinə şəraitin yaradılması 28 saylı Sabunçu III seçki dairəsi dairə seçki komissiyasının diqqətinə çatdırılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova